# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 76

*Milli Məclisin iclas salonu.*

*16 oktyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| İştirak edir | 95 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

38. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

39. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

40. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

41. “İpoteka haqqında” Azərbaycan Respublikasının

Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

42. “Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

43. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

44. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

45. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

46. “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

47. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

48. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

49. “Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

50. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

51. Azərbaycan Respublikasının İnzibati Xətalar Mə-

cəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

52. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

53. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

54. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**38. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.06 dəq.)

| | |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**39. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**40. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fazil Mustafa, Zahid Oruc, Aqil Abbas, Qənirə Paşayeva, Siyavuş Novruzov, Çingiz Qənizadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**41. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyad Səmədzadə, Oqtay Əsədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**42. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**43. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**44. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Gövhər Baxşəliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**45. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**46. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**47. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**48. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**49. “Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**50. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**51. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**52. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**53. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Arif Rəhimzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| **Təklif:** Layihə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**54. Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Aqiyə Naxçıvanlı, Tahir Kərimli, Elman Nəsirov, Əflatun Amaşov, Aqil Abbas, Sevinc Fətəliyeva, Qənirə Paşayeva, Fəzail Ağamalı, Sahibə Qafarova, Zahid Oruc, Bahar Muradova

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
| Lehinə | 79 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 79 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası və 1–6-cı maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Maddələr 7–19 qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*16 oktyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri. Xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| İştirak edir | 95 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. 5 nəfər millət vəkili də indi görüş keçirir, gələcəklər.

Gündəliyimizi keçən iclasda təsdiq etmişdik, indi davamı gedir. Cəmi 17 məsələmiz var. Bu məsələlərin əksəriyyəti ikinci oxunuşdur. Hər oxunuşda layihələr 3 dəfə səsə qoyulur. Ona görə xahiş edirəm, səsvermədə diqqətli olaq.

Gündəliyin 38-ci məsələsi. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında. İkinci oxunuş. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bildirmək istəyirəm ki, Banklar haqqında qanunda və Mülki Məcəllədə dəyişikliklər barədə qanun layihələri Milli Məclisin plenar iclasında birinci oxunuşda və komitənin iclasında ikinci oxunuşda müzakirə edilərkən ona hər hansı əlavə və düzəlişin edilməsi barədə təklif daxil olmamışdır. Eyni zamanda, məlumat vermək istəyirəm ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının məsul rəhbər işçilərinin iştirakı ilə qanun layihələri ətraflı müzakirə olundu və Milli Məclisin plenar iclasına tövsiyə edildi. Ona görə sizdən xahiş edirəm ki, qanun layihəsinə müsbət münasibət bildirəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. İkinci oxunuş olduğu üçün ilk növbədə qanun layihəsini əsas kimi qəbul etmək lazımdır. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddə-maddə çıxış etmək istəyənlər varsa, xahiş edirəm, yazılsınlar. Çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, ikinci oxunuşda qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda bütövlükdə qəbul edildi.

Gündəliyin 39-cu məsələsi. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. İkinci oxunuş. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bu qanun layihələri, yəni 38–39-cu məsələlər cənab Prezidentin bir məktubu ilə daxil olub. Eyni dəyişikliklərdir. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Maddələrlə bağlı çıxış etmək istəyən varsa... Fazil Mustafa yazılmışdı.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Onda xahiş edirəm, qanun layihəsinə maddələr üzrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 40-cı məsələ. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında. İkin-

ci oxunuş. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli cənab Sədr. Bu məsələ ilə bağlı hörmətli millət vəkillərindən hər hansı təkliflər daxil olmamışdı. Amma qısaca xatırlatmaq istəyirəm ki, həm Mülki Məcəllə, həm də sonrakı "İpoteka haqqında" Qanun bir-biri ilə üzvi surətdə bağlıdır. Burada məqsəd ipotekalarla bağlı vətəndaş-məmur təmaslarının minimuma endirilməsi, şəffaflığın daha da artırılması, qeydiyyatın, dövriyyənin elektron formada həyata keçirilməsidir. Mülki Məcəllə məhz ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada həyata keçirilməsi üçün bir hüquqi baza yaradır. Bu əhəmiyyətlidir və həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---:|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinin maddə-maddə müzakirəsi ilə bağlı çıxış etmək istəyən varmı? Buyursun Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Həqiqətən də bank sistemində, ipoteka sistemində Mülki Məcəllədə nəzərdə tutulan şəf-

faflıq məsələsi vacib məsələdir, çünki bu məsələ həllini tapmayanda vətəndaş böyük problemlərin altında əzilmiş durumda qalır.

Necə ki indi mən bura gələrkən gördüm, çox sayda şəhid ailələrinin təmsilçiləri binanın qarşısına yığışmışdılar. Xahiş etdilər, mən onları qəbul etdim. Onların qaldırdığı məsələ bu problemə uyğun olduğuna görə münasibət bildirmək istəyirəm.

Bildiyiniz kimi, ölkə Prezidenti şəhid ailələrinin qayğısına qalmaq istiqamətində böyük bir addım atdı, onlara 11 min manat birdəfəlik müavinətin verilməsi barədə fərman verdi, çox sayda ailələr bundan bəhrələndilər. Çünki bu adı daşıyan insanlara dəyər vermək olduqca vacibdir. Müharibə aparan dövlətdə mütləq bu insanların hüquqlarını qorumaq lazımdır. Amma çox sayda insanlar var ki, bu hüquqdan yararlana bilmirlər. Onlar “Azərsığorta” Şirkətinə müraciət edirlər, oradan isə bəhanə gətirərək bildirirlər ki, siz vaxtilə 50 min manat, o dövrün, 90-cı illərin 50 min manatı miqdarında vəsait alıbsınız. Bu insanlar məsələ qaldırırlar ki, biz o vəsaiti almamışıq. Böyük əksəriyyət o vəsaiti, həqiqətən, aldıqları barədə sənəd verilməsini tələb edirlər. Deyirlər, bu sənəd sizin arxivdə olmalıdır. Qarşı tərəfdən isə bu iş vətəndaşın öhdəsinə buraxılır ki, sən almadığını sübut elə. Belə şey ola bilməz axı. Niyə bunu vətəndaş sübut etməlidir?

Mən demirəm, vətəndaş tam haqlı olmaya da bilər. Bunlar şəhid ailələridir. Bunlara əgər o vaxt az miqdarda vəsait verilibsə belə, bu gün hansısa bir insanın 11 min manat almaq hüququ pozulursa, bunun sabah çox ağır mənəvi nəticəsi ola bilər. Onlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edirlər. Onlara deyirlər, “Azərsığorta”dan sizin adınız bura verilməyibdir, ona görə

vəsait ala bilməzsiniz. Bu da yanlış yanaşmadır. Dövlət qurumları öz funksiyalarını yerinə yetirmir, vətəndaşı Milli Məclisə yönəldirlər. Milli Məclis  üzərinə düşəni edib, qərarı qəbul edib, məsələ ilə bağlı ölkə Prezidenti də bu istiqamətdə addım atıbdır. Hansısa məmur öz vəzifəsini düzgün yerinə yetirə bilmirsə, şəhid ailələrinə qayğı göstərə bilmirsə, bunun yolunu tapmaq lazımdır. Ola bilsin ki, burada söhbət 2 mindən artıq vətəndaşdan gedir. Amma bunlar bizim vətəndaşlardır və həqiqətən, şəhid olmuş insanlardır. Təbii ki, bəziləri qanunu  bilmirlər. Qanuna görə şəhidin 23 yaşına çatmamış övladı varsa, ona ödənilir, o yaşdan sonra bu statusdan istifadə etmək artıq mümkün olmur. Amma dul qalmış qadını varsa, ondan axıra qədər yararlanmalı, o vəsaiti almalıdır.

Ona görə də, Oqtay müəllim, mən nə təklif edirəm? Bu məsələyə bir az ciddi yanaşaq. Deyirlər, 5 ildən bir arxiv yoxa çıxır, arxivi ləğv edirik, yandırırıq, yaxud da materiallar itir. Elektron qaydada bu sənədləşmənin olması ona görə vacibdir ki, artıq bu itməsin. Təsəvvür edin ki, adam Daxili İşlər Nazirliyinin tərkibində döyüşübdür, şəhid olubdur. Buna Daxili İşlər Nazirliyi tərəfindən sənəd verilib ki, sizin Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları ilə bağlı bütün güzəştlərdən istifadə etmək hüququnuz vardır. Bu artıq şəhid ailəsidir.

Bunlarsa bildirirlər ki, sizin yaxınınız Daxili İşlər Nazirliyinin tərkibində vuruşduğuna, şəhid olduğuna görə siz şəhid ailələri qisminə daxil deyilsiniz. Belə məntiqsizlik olarmı? Buna kağız verilir ki, güzəşt qalır, şəhidlik pulu almalıdır, amma sonradan, 11 min manatla bağlı fərmanın tətbiqi məsələsində bildirirlər ki, sən polis olmusan, sənə bu pulu verə bilmərik. Sən gərək hərbçi olaydın,

bunu sənə verərdik. Hərbçiyə də başqa bəhanə deyilir. Ona görə bu insanların probleminin araşdırılması üçün dövlət, ya hökumət səviyyəsində xüsusi bir qrup yaradılmalıdır. Bu qrup tərəfindən araşdırılmalıdır, bəlkə haqsız tələblər irəli sürənlər də var? Mən iddia etmirəm ki, onların hamısı haqlıdır. Amma haqlı tələb sürənlər də var. Haqlıdırsa, bu adam niyə bu pulu almasın? Həm də o dövrün 50 min manatının dəyəri də indiki 11 min manatla müqayisədə heç bir şeydir. O vaxt kiməsə dəfn pulu kimi verilibsə belə, devalvasiyadan, müəyyən dəyişimlərdən sonra o pul böyük bir vəsait də sayılmır.

Ona görə də mən təklif edirəm ki, bu ailələrin problemlərinin həlli istiqamətində hökumət səviyyəsində bir qrup yaradılsın, konkret şəxslərlə bağlı bütün məsələlər araşdırılsın. Bu təbəqəyə diqqətsiz yanaşmaq olmaz. Hər bir şəhid ailəsi ayrılıqda qəbul olunsun, hər bir şəhid ailəsi inandırılsın, əsaslandırılsın ki, bu sizə niyə düşmür, düşürsə, niyə verilmir? Bu müəyyən edilsin ki, bu axın Milli Məclisə tərəf gəlməsin, çünki bizim səlahiyyətimiz o deyil və bu insanlara da yalandan nə isə deməyə haqqımız yoxdur. Bu məsələ, nəhayət, həllini tapsın. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Təbii ki, biz indi müzakirəyə çıxardığımız məsələni qəbul edəcəyik. Söhbət ipoteka ilə bağlı Əli müəllimin təqdim etdiyi kimi, sənədlərin elektron versiyada hazırlanmasından və digər prosedurlardan gedir. Bu çox təqdirəlayiq haldır. Hər birimiz bu yöndə öz müsbət mövqeyimizi ifadə edəcəyik.

Amma həmkarımız Fazil Mustafanın qaldırdığı məsələyə, cənab Sədr, çox qısa şəkildə, məsələlərin sayı azdır,

əgər izin versəniz, mən də toxunmaq istəyirəm.

Rəqəm belədir: 4800-dən artıq şəhid ailəsinə bu cür "yox" cavabı verilib. Mən bunu rəsmi olaraq elan edirəm. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də bu problemdən ötrü narahatdır. Onlar da müxtəlif danışmalarda və ya yazışmalardadırlar ki, problem öz həllini tapsın. Biz nəzərə almalıyıq ki, prezident seçkilərindən sonra cənab Prezident bu məsələni həll etdi və bu mənim aləmimdə müqəddəs bir qərar idi, ilahi bir qərar idi. Çünki onsuz da bir ailədən bir şəhid varsa, onun həyatını heç nə ilə sığorta etmək olmaz. Sadəcə, xalq dilində buna "qan pulu" deyirdilər, amma mənim aləmimdə dünya, elm nə qədər mükəmməl səviyyəyə çatırsa, çatsın, bir damla qanı yarada bilmir, qanın qiyməti yoxdur, əslində.

Dövlət başçısı bununla sübut etdi ki, şəhid və şəhid ailəsi mənim üçün müqəddəs məna daşıyır və şəhid bu dövlətin məhək daşıdır. İndi bu problemin həlli tapşırılıb, dəqiq adı belədir – "Dövlət kommersiya sığorta təşkilatı"na. Buna verilib, bu da onların hamısına sankı bir robot beyni ilə rəsmi trafaret cavab verir ki, siz bu vəsaiti nə vaxtsa almısınız. Yüzlərlə insan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edir ki, axı, dövlət başçısı bu vəsaiti bu insanlara verib. Onlardan bir ailənin üzvü mənə müraciət edib. Deyir ki, mən o vəsaitdən imtina edirəm. Soruşuram, niyə? Deyir, mən fikirləşirəm ki, o vəsaiti alsam, onu nəyə xərcləyəcəyəm? Sanki mən öz övladımı xərcləyirəm. Elə almamışam, almamışam da, 10 illərlə qalıb, qoy yenə qalsın. Belə insanımız da var.

Bu adamlar həssas təbəqədirlər. Bunlara sıradan insanlar kimi yanaşmaq olmaz. Sadəcə, problemli bir vətəndaş gəlib, ona da istiqanlı yanaşmaq lazımdır. Ona da, – dövlətin qanunları tələb edir, – ciddi yanaşmaq lazımdır.

Amma şəhid ailəsi bir daha ayağa qalxıb bu torpaq uğrunda vuruşacaq. Ona görə də mən bundan artıq xüsusi sözlər demək istəmirəm.

Burada parlamentin, cənab Sədr, Sizin də mövqeyinizi xatırlayıram ki, həqiqətən, o problem ortada qalanda, parlament barmaqla bir qədər məsuliyyət daşıyan tərəf kimi göstəriləndə Siz də tribunadan söylədiniz, Məclis üzvləri də bəyan etdilər ki, bununla bağlı qanunvericilik aktı qəbul olunubdur. Konstitusiya Məhkəməsi də bununla bağlı məsələyə aydınlıq gətirmişdi. Ən yüksəyini cənab Prezident dövlət büdcəsindən on illər sonra vəsait ayıraraq dövlətin vətəndaş qarşısında borcunu yerinə yetirmiş oldu. Özü də o dövrdə ki, əslində, düz-əməlli, normal dövlət də formalaşmamışdı. Amma Azərbaycan Prezidenti bunu da etdi. Ona görə hansısa bir məmurun, bir sığorta qurumunun ixtiyarı yoxdur ki, bu qədər ilahi qərarı gətirib hansısa formada pis yerinə yetirsin və ayrı-ayrı insanların nəzərində bu cür söz-söhbətə səbəb olsun. Ona görə də Fazil bəy təklif etdiyi kimi, mən elə düşünürəm ki, bununla bağlı parlamentin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, sığorta qurumunun nümayəndələrinin daxil olduğu bir komissiya yaratmaq olar ki, prosesi sona qədər izləsin və bu məsələ öz həllini tapmış olsun. Bunu demək istəyirdim. Çox təşəkkür edirəm ki, mənə imkan verdiniz, bunu dedim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas.

**A.Abbas.** Təşəkkür edirəm, Oqtay müəllim. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən başqa bir məsələyə toxunmaq istəyirəm. Fazil müəllim, Zahid müəllim dedilər, müharibə başlayanda Qarabağda nə Müdafiə Nazirliyi vardı, nə hərbi qulluqçular vardı. Vuruşanlar, əsasən, könüllü insanlar idilər. Lənkərandan tutmuş Qazaxa

qədər, Naxçıvandan tutmuş Qubaya qədər, yəni bütün Azərbaycan ərazisindən, Gürcüstandan, oradan-buradan könüllü insanlar gəlib öz ciblərinin pulu ilə vuruşurdular. Hətta maşını satıb, rus hərbi hissələrindən silah alıb torpağı könüllü qorudular, vuruşdular və şəhid oldular. Eyni zamanda, həmin vaxt ən yaxşı döyüşənlər polis işçiləri oldu. Çünki onlar nizam-intizam görmüşdülər, qayda-qanun bilirdilər, silahdan istifadəni bilirdilər, aşağıdan yuxarıya əmri gözləməyi bilirdilər. Azərbaycanın bir çox kəndləri – Kamo, Çaykəndi, Qaladərəsi, Şaumyan kəndi, indi Ağcakənd adlanır – polislərin sayəsində azad edildi. Bir çox kəndlər, – indi mən hamısını saymaq istəmirəm, – polis və könüllülərin gücünə, əsasən də, polislərin gücünə işğaldan azad edildi.

Çox qəribədir ki, komitədə də dəfələrlə bu söhbət olub, bəzən müharibə veteranları əlində avtomatın nömrəsi, hərbi hissədən tərxis olunması barədə sənədi, müharibə veteranı vəsiqəsini ala bilmir. Bu əvvəllər də olub, dəfələrlə Müdafiə Nazirliyinə müraciət də etmişik. O vaxtkı müdafiə naziri, – gedənin arxasınca danışmazlar, – heç vecinə almırdı. İndi görək bu müdafiə naziri nə edir.

Yəni məsələ nədir? Hamı sevindi ki, 6 min şəhidə, 6 min 800-ə qədər şəhidə möhtərəm Prezidentin həmin sərəncamı şamil ediləcək. Amma könüllü vuruşanların, xüsusilə polis işçilərinin şəhid olanlarının yaxınlarının da birdəfəlik yardım alması vacibdir. Ordu olmayanda vuruşan bunlar idi. Ordu, nə bilim, 91-də, ya 92-də yaradılıb. 1991-də heç yox idi. İlk ordunu, nizami ordunu Şirin Mirzəyev yaradıb. Ona görə də mən istərdim ki, möhtərəm Prezidentimizin fərmanı həmin o könüllü döyüşən insanlara da, – 4–5 uşağını qoyub gəlib, Ağdamda, ya Tərtərdə könüllü döyüşüb, ölüb, – şamil olunsun. 50-sinin

adını çəkə bilərəm. Eyni zamanda, polis işçilərinə belə diqqət göstərilsə, sevinərdik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva**. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Mən də qanun layihəsinə səs verməklə bərabər həmkarlarımın təkliflərinə qoşularaq bir sıra məsələləri səsləndirmək istəyirəm. Çünki demək olar ki, hər gün 4–5 şəhid ailəsi zəng edir, qəbula gəlir və xahiş edir ki, müvafiq qurumlarda bu məsələ qaldırılsın. Onlar hamısı cənab Prezidentdən razılıq edir ki, cənab Prezident belə bir önəmli qərarı qəbul edib. Bu, şəhid ailələrinə diqqətin, qayğının nümunəsidir. Sadəcə, onlar bəzi şəhid ailələrinin, şəhid statusu almış insanların ailələrinin bundan yararlana bilməməsinə təkrar baxılması məsələsini qaldırırlar.

Bununla bağlı müvafiq qurumlarla danışanda görürük ki, onlar da eyni narahatlığı bölüşür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi deyir ki, gəlirlər qəbula, biz də pis oluruq, şəhid ailələridir, onlara hər hansı bir söz demək bizə də çətindir. "Azərsığorta" ilə danışırsan, eyni sözü onlar da deyirlər ki, gəlirlər, biz də narahatıq. Mənə elə gəlir ki, bunların parlamentə ünvanlandırılması məsələsinin qarşısını almaq üçün qarşıdan büdcə müzakirələri gəlir, bu məsələni hökumət qurumlarının diqqətinə çatdırmaq olar.

Şəhid ailələri bizim hamımız üçün müqəddəsdir, onlar başımızın tacıdırlar. Həm cənab Prezident, həm ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva şəhid ailələri ilə görüşəndə cəmiyyətə bu mesaji verdi ki, şəhid ailələri xüsusi diqqətdə olmalıdır. Ona görə də bir çox şəhid ailələrimiz cənab Prezidentin bu humanist addımından, onlara diqqət və qayğısından yararlanır. Bir qisim şəhid ailələrimizin bundan narazı qalmaması üçün, özəlliklə nəzərə alsaq ki, şəhid ailələrinin əksəriyyətinin bu

vəsaitə ciddi ehtiyacları var, imkanları yuxarı olmayan ailələrdir, bu məsələyə diqqətlə yanaşılmalıdır. Büdcə müzakirələri də gəlir, bəlkə hökumət qurumları ilə oturub bu məsələləri müzakirə etmək olar. Bunun bir yolu tapılsın ki, bu ailələrə münasibətdə fərqlilik yaranmasın. Çünki bir qisim istifadə edə bilir, bir qisim hansısa səbəblərdən istifadə edə bilmir. Bu məsələnin öz həllini tapmasına ehtiyac var, çünki bu adamlar haraya gedirlərsə, nədənsə, üzü parlamentə sarı göndərilirlər. Onlar da millət vəkillərinin qəbuluna gəlirlər. Biz də çətin vəziyyətdə qalırıq ki, şəhid ailəsidir, ona müsbət cavabımız ola bilmir. Ona görə cənab Sədr, Siz bu məsələyə həmişə həssas yanaşmısınız, daim diqqətinizdə olub, bir daha bu məsələyə diqqət ayırıb, hökumət qurumları ilə danışaraq necə eləmək olar ki, bu ailələrin narazılığı olmasın? Buna aydınlıq gətirib, müsbət həllinə nail olunmasına ehtiyac var. Çünki bir az əvvəl də həmin ailələr yenə müraciət elədilər ki, parlament iclasları başlayıb, bu məsələni qaldırın. Ona görə onlar eşitsinlər ki, onların sözü xalqın parlamentində səslənir və ümid edirik, inanırıq ki, öz müsbət həllini tapar. Sağ olun.

**Sədrlik edən.** Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Sədr! Mən də həmkarlarımın dediyinə qoşuluram. İpoteka ilə bağlı olan məsələni qeyd etmək istərdim. Hesab edirəm ki, burada sənədləşdirmə və informasiya texnologiyalarının tətbiqi təqdirəlayiq haldır.

Burada qaldırılan bir neçə məsələyə toxunmaq istərdim. Cənab Sədr, indicə bizim komitənin bir qrup üzvü Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illik yubileyində iştirak edirdi. Orada cənab Prezidentə çox böyük təşəkkürlərini, minnətdarlıqlarını bildirdilər ki,

müharibə veteranlarına, əmək veteranlarına daim diqqət və qayğı göstərilir. İstər Böyük Vətən müharibəsi veteranları olsun, istər Əfqanıstan veteranları olsun, istərsə də Qarabağ veteranları olsun, Azərbaycan dövləti tərəfindən həmişə diqqət mərkəzində saxlanılırlar. Xüsusən qeyd etmək istərdim, ayrı-ayrı ölkələrdən çoxlu sayda qonaqlar gəlmişdi, onların da fikirləri belə idi ki, Azərbaycanın bu sahədə təcrübəsi öyrənilməlidir. Azərbaycanda veteranların, əlillərin və şəhid ailələrinin sayı həmin ölkələrdəkindən qat-qat çoxdur. Onlarda bir, yaxud iki müharibənin veteranları var, bizdə isə üç müharibənin veteranları var. Qarabağ müharibəsi veteranları da bu gün bura əlavə olunurlar və onlar çoxluq təşkil edirlər. Azərbaycanda həmin insanlara necə diqqət, qayğı göstərildiyi, hər birinin mənzillə, nəqliyyat vasitələri ilə təmin olunmaları, növbələrin təşkili, yeni evlərin tikilməsi, torpaq sahələrinin verilməsi və digər sahələrdə təcrübə yüksək qiymətləndirilir.

Mən burada bir fikri də qeyd etmək istərdim ki, Böyük Vətən müharibəsindən sonra 1970-ci ilə qədər, baxmayaraq ki, Sovetlər Birliyi həmin müharibədə qalib gəlmişdi, veteranların heç bir statusu yox idi. Nə nəqliyyat vasitəsi verilirdi, nə onların sosial təminatı tam şəkildə həyata keçirilirdi və sair. 70-ci ildə, dövlət tam möhkəmləndikdən sonra veteranlarla bağlı addımlar atmağa başladılar və bunun da şahidiyik. Burada oturan insanlardan valideynləri həmin müharibənin iştirakçısı olanlar var ki, həmin qayğıdan bəhrələniblər.

Burada şəhid ailələri ilə, onlara verilən müavinətlə bağlı cənab Prezidentin atdığı çox cəsarətli bir addımı qeyd etmək istəyirəm. Bu məsələ ətrafında çoxlu müzakirələr getmişdi, nəticə etibarı ilə də son qərarı yenə çox düzgün olaraq cənab Prezident verdi. Ancaq burada mad-

diyyat tərəfinin şişirdilməsinin mən əleyhinəyəm. Həmin vəsaitin nə qədər olmasından asılı olmayaraq, biz daha çox məsələnin mənəvi tərəfinin üstündə durmalıyıq. Əgər insanı itirmisənsə, ona qiymət qoymalısan ki, bunun qiyməti nə qədərdir? Ya filan qədərdir? Bu insan digərlərindən seçilməlidir və bunun mahiyyəti çox böyükdür. Bəli, onun övladları, ailəsi göstərməlidir ki, mənim atam, ailəm şəhid olub və bu da nəticəsi. O, torpaq uğrunda ölüb, dövlətin şəhididir, millətin şəhididir, xalqın şəhididir. Yoxsa 5 manat az oldu, 5 manat çox oldu. Söhbət bu vəsait onu təmin edəcək, etməyəcəkdən getməməlidir. Mən hesab edirəm, bu, mənəvi məsələdir və buna mənəvi baxımdan yanaşmalıyıq.

Digər tərəfdən, bilirsiniz ki, bu yaxınlarda Baş nazirin rəhbərliyi altında Nazirlər Kabineti qərar qəbul etdi ki, veteran statusu almaq istəyən şəxslər hansı qaydada müraciət edə və bu məsələyə necə baxıla bilər. Bizim komitəyə də, Oqtay müəllim, bu cür müraciətlər daxil olur. Qeyd etmək istərdim ki, Azərbaycanda veteranların sayı 60 mini keçib. Yəni sırf Qarabağ veteranlarını nəzərdə tuturam. Böyük Vətən müharibəsi, Əfqanıstan veteranlarını kənara qoyuram. Həmkarlarımın nəzərinə çatdırmaq istəyirəm ki, hərbi işlə əlaqəsi olanlar gözəl bilirlər, Əfqanıstanda cəmi bir ordu vuruşurdu – 40-cı ordu. 40-cı ordunun tərkibində texniki hissə ilə birgə təxminən 40 minə yaxın əsgər və zabit fəaliyyət göstərirdi. Azərbaycanda 60 min Qarabağ müharibəsi veteranı var. Azərbaycanda həminki dövrdə alay, diviziya, korpus olmayıb, tabor olub. Taborun tərkibi 200 nəfərdən yuxarı olmur və o vaxt Azərbaycanda 20–30 tabor vardı. Həmin ərazidə yaşayan əhali, sakinlər bu taborların tərkibində vuruşub. Yəni, bilirsiniz, vaxtı ilə döyüşən, veteran adını haqq edən

insanlar qalıb kənarda, haqqı olmayanlar gedib adlarını veteran siyahılarına yazdırıb, haqqı çatanların haqqını mənimsəyiblər. Nazirlər Kabineti də insanların müraciətlərini nəzərə alıb, imkan yaradır ki, veteran adı almaq istəyənlər müraciət etsinlər. Ordu hissəsinin tərkibində döyüş əməliyyatlarında iştirak edən şəxsin müharibədə iştirakını onun çağırışçı kimi qeydə alındığı hərbi komissarlıq təsdiq etsə, həmin şəxsə müharibə veteranı vəsiqəsi veriləcək. Əks təqdirdə kiminsə müharibə veteranı vəsiqəsi alması mümkün deyil. Təbii ki, sərhəd bölgəsində yaşayan hər bir şəxs iddia edə bilər ki, mən müharibədə iştirak etmişəm, müharibə veteranıyam. Amma bunun doğruluğu qeyd etdiyim qaydada müəyyənləşməlidir.

Burada hərbçilərlə və polislərlə bağlı məsələ qaldırıldı. Bu məsələ hörmətli Ziyafət müəllimin komitəsinin səlahiyyətlərinə aiddir. Bir var hərbi hissəyə ezam olunanlar, bir də var həmin hərbi hissəyə həqiqi hərbi xidmətə çağırılanlar. Bunların statusu fərqlidir. Müəyyən bir struktur, məsələn, bir, yaxud bir neçə nəfər xüsusi təyinatlını ezam edir ki, hansısa əməliyyatı keçirsin, yaxud keçirsinlər. Müəyyən struktur bölmələr var ki, orada dislokasiya olunub və həmin ərazinin müdafiəsinə cəlb edilib, müəyyən struktur bölmələr var ki, o ərazinin yaxınlığında yerləşir, yaxud müvəqqəti xidmət aparır. Onlar hamısı əvvəlcədən müəyyənləşdirilir və fəaliyyətlərinə uyğun da qərar verilir. Bununla bağlı hər bir sahənin öz proqramı var. Həmin proqramlar əsasında insanlar öz statuslarına uyğun müvafiq nazirliklərdə xidmət göstərirlər. Yəni hər bir dövlət strukturunun, əməkdaşın öz statusu var.

Müraciətlərin olması yaxşıdır. Mən də tərəfdarıyam ki, bu məsələdə heç bir sapıntı ola bilməz. Bəri başdan tələsmək lazım deyil ki, komissiya yaradaq, araşdıraq. Kimin

narazılığı varsa, deyə bilər. Biz Hərbi çağırış üzrə komissiyanın üzvləri idik. Hər çağırışda 400–500 nəfər müraciət edirdi və həmin 400–500 nəfərin şikayətinə baxılırdı, daha bütövlükdə çağırışa cəlb olunan 16 min nəfərin yox. O baxımdan da, əgər kimin şikayəti olacaqsa, müraciət edəcək. Öz haqlı müraciətinə düzgün cavab almayacaqsa, o vaxt müdaxilə etməyə, güman edirəm ki, ehtiyac yaranır və bu məsələnin həlli yolu da bundan ibarətdir.

Şəhid ailələri bir problemlə də bizə müraciət edirlər, o da şəhidlik statusu ilə bağlıdır. Düzdür, məhkəmə qərar verir ki, bu kimə çatır, ailəsinə, övladlarına, yaxud valideynlərinə. Valideyn deyir, mənim övladımdır, mənim oğlum şəhid olub. Həyat yoldaşı deyir, mənim həyat yoldaşım şəhid olub, övladları deyir, mənim atam şəhid olub. Burada konkretləşdirmək  üçün yol ancaq məhkəmənindir. O statusu məhkəmə bu gün həmin qərarla ailə üzvünə verib. Ailə üzvləri arasında da görürsən, problemlər yaranır və nəticə etibarilə bizlərə müraciət edirlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Çingiz Qənizadə.

**Ç.Qənizadə**. Təşəkkür edirəm, cənab Sədr! Həqiqətən də, 50–100 nəfər insanın küçədə, Milli Məclisin qarşısına toplaşaraq öz haqlarını tələb etməsi ürəkaçan bir səhnə deyildi.

Cənab Prezident çox humanist addım atıb və şəhid ailələrinə birdəfəlik müavinətlərin verilməsi üçün pul ayrılıb. Çox təəssüf ki, bu cür, loru dildə desək, urvatlı bir işi urvatsız eləməyə çalışanlar var, yaxud da ki, qanunlarımızda hansısa boşluqlar var. Biz burada  birbaşa hansısa rəsmi dövlət qurumunu da ittiham etməkdə haqlı deyilik. Bəlkə, doğrudan, boşluqlar var. Çünki qanunlarda həmişə boşluqlar olur, onun icrası zamanı bəzən boşluqlar üzə

çıxır və biz bunlara baxmalıyıq. Mən hesab edirəm ki, burada həmkarlarım da qeyd etdilər, bunun mənəvi tərəfi var. Bəli, mənəvi cəhətdən biz şəhid ailələrini küçələrdə, dövlət binalarının qarşısında 50–100 nəfər toplaşmağa vadar etmişiksə, deməli, müəyyən problemləri özümüzdə axtarmalıyıq. Problemin həlli yolunu axtarmalıyıq. Bunun gənc nəslə də mənəvi təsiri var ki, şəhid ailələri bu gün dövlət qurumlarının qapısındadır. Nə edək? Mən təklif edərdim ki, müvafiq icra strukturları, hansı nazirlik bunu birbaşa həyata keçirirsə, dərhal telekanallarda efir vaxtı alsın və bu insanları maarifləndirməyə çalışsın. Problem haradadır və bunun həlli yolu nədir?

Əgər qanunvericilikdə hansısa bir problem varsa, biz və ya digər qurumlar da subyekt kimi bu məsələni qaldıra və həll edə bilərik. Amma mən çox istərdim ki, bu insanlar küçələrdən yığılsınlar, möhlət verilsin və onlara başa salınsın ki, bu məsələ həll olunur. Amma biz onları qapı-qapı göndərsək ki, bizim səlahiyyət deyil, ora gedin, ondan sonra məhkəmə qapılarına göndərsək, bu proseslər uzanacaq. Ona görə çox istərdim ki, qanunvericilikdə bunun icrası ilə bağlı hansı isə boşluqlar yaranıbsa, daha doğrusu, onun icrası ilə bağlı müvafiq iş aparılmalıdır. Bununla bağlı bu insanları maarifləndirmək üçün dövlətin müvafiq icra orqanları telekanallarda təcili vaxt alsınlar və insanlara fikir bildirsinlər.

Bir də, veteran məsələsi ilə bağlı qeyd olundu. Məhkəmə ilə həll olunan məsələlərə də bəzən Müdafiə Nazirliyi qiymət vermir. Mənə müraciət edən onlarla şəxsin əlində məhkəmə qərarları var. Hərbi hissənin komandanlığı arayış verir ki, bəli, bu şəxs filan vaxtdan filan vaxta qədər filan bölgədə döyüşdə olub. Amma onların Müdafiə Nazirliyi tərəfindən veteran kimi tanınması üçün məh-

kəmə qərarları kağız üstündə qalıb. Keçən həftə mən üç nəfəri Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz müəllimin üstünə göndərdim. Eyvaz müəllim özü vaxtı ilə onların komandiri olub, şəxsən tanıyır. Öz əsgərləri üçün də məhkəmənin tələbi ilə arayışları  təzədən verdi. Yenə də məhkəmədə qalıb və o insanlar artıq iki-üç ildir Qarabağda döyüşdüklərini sübut edə bilmirlər. Boşluqlar var. Gəlin, boşluqları aradan qaldıraq.

Şəhid ailələrinin bu gün Milli Məclisin qarşısına toplaşması mənə çox pis təsir edib. Onları yəqin başa salıblar ki, gedin Milli Məclisə.

Qanunlarımıza baxaq, əgər boşluq varsa, gəlin onu aradan qaldıraq. Vətən uğrunda, torpaq uğrunda canını qoymuş, şəhid olmuş insanların hər biri bizim üçün müqəddəs insandır. Bir də, qanunvericilik tam dəqiqliklə müəyyən edib, bu pullar kimə verilməlidir. Qohumluq əlaqələri, hansı qohumluq, orada boşluq yoxdur. Amma biz sübut etmə funksiyasını vətəndaşların üzərinə qoymaqla necə haqlı ola bilərik ki? Necə yəni sən 90-cı ildə bunu almısan və ya 91-də, sübut elə ki, almamısan. Bu, yanaşma deyil, mən belə hesab edirəm ki, mütləq yanaşmanı dəyişməliyik.

**Sədrlik edən.** Biz yanaşmanı dəyişməliyik, ancaq hər şeyi Milli Məclis eləyə bilməz axı. Milli Məclis bu istiqamətdə bütün fəaliyyəti göstərdi. Komitə sədrləri, sədr müavinləri dəfələrlə görüşlər keçirdi, hər yerə müraciət olundu, nə mümkündür edildi və cənab Prezidentin sərəncamından sonra bu məsələ öz həllini tapmalıdır. Mən bilirəm, imkan versək, bu danışıqlar uzanacaq. Ona görə təklif edirəm ki, İnsan hüquqları komitəsinə, Bahar xanımın komitəsinə tapşıraq, kimi istəyir, cəlb etsinlər, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Sığorta Kommersiya Şirkətinin nümayəndələrini dəvət etsinlər, araş-

dırma aparsınlar. Etiraz yoxdursa, bu məsələni bununla bitirək.

İndi xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

40-cı məsələyə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bunun davamı olaraq "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, Əli müəllim kifayət qədər məlumat verdi. Bir məktubda daxil olub. Eyni dəyişiklikdir, ona görə millət vəkillərindən xahiş edirəm, səs versinlər.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi qanun layihəsinin maddə-maddə müzakirəsinə ehtiyac varsa, buyurun. Əgər ehtiyac yoxdursa, buyurun, qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəliyin 42-ci məsələsi "Lotereyalar haqqında" Qanunda dəyişikliklər edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Lotereyalar haqqında qanun layihəsi komitədə ikinci oxunuşda müzakirə olunaraq qəbul edilmiş və plenar iclasa məsləhət görülmüşdür. Eyni zamanda, "Lotereyalar haqqında" Qanunun 5-ci maddəsində bir məsələnin aydınlaşdırılması barədə hazırda danışıqlar gedir. İndiki qanun layihəsində nəzərdə tutulurdu ki, tiraj komissiyası üzvlərinin sayı 5 nəfərdən az olmamalıdır. Təklif olunan yeni qanun layihəsində tiraj komissiyası üzvlərinin sayının 3 nəfərdən az olmaması təklif edilir. Millət vəkilləri bu dəyişikliklərə lazımi cavab tapa bilmədilər və biz belə hesab edirik ki, elə əvvəlki qayda qalsa, daha məqsədəuyğun olardı. Yəni tiraj komissiyasının üzvlərinin sayının azalmasına ehtiyac yoxdur. Bu barədə hazırda qanun layihəsinin təşəbbüsçüləri ilə danışıqlar aparılır. Mənə elə gəlir ki, üçüncü oxunuşa qədər bu məsələdə biz ümumi razılığa gələcəyik. Ona görə millət vəkillərindən xahiş edirik ki, ikinci oxunuşda qanun layihəsinə səs versinlər.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul etməyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Qanun layihəsini maddələr üzrə müzakirə etməyə ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun və nəhayət, qanun layihəsinə ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 43-cü məsələsi Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi barədədir, ikinci oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, bu məsələ ilə bağlı birinci oxunuşdan sonra hər hansı bir təklif daxil olmayıb. Amma qısaca xatırlatmaq istəyirəm ki, məsələnin mahiyyəti 2006-cı ilin yanvarın 1-dək Azər-

baycan Respublikasına gəlmiş şəxslərin daimi yaşaması faktının Mülki Prosessual Məcəllədə prosedurunu müəyyənləşdirməkdir. İkinci oxunuşda səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddə-maddə müzakirə etməyə ehtiyac varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, maddələr üzrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun və nəhayət, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

44–45-ci məsələlər bir zərfdə daxil olub, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar birinci oxunuşda çıxış edib bu məsələni dəstəkləmişdilər. Belə ki, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində yerin təkinin qorunması və istifadəsi qaydalarının pozulmasının həm cinayət məsuliyyəti yaratdığı halda, həm də inzibati xəta olduğu halda məsuliyyətin artırılması məsələsini müdafiə etdilər. Qeyd olundu ki, Azərbaycan neft-qaz, ümumiyyətlə, faydalı qazıntılar ölkəsidir və bu baxımdan yerin təkindən istifadə qaydalarının pozulmasının ağır nəticələrə, o cümlədən insan ölümünə səbəb olduğu hallarla bağlı qanunvericilikdə yeni cinayət tərkibinin müəyyən edilməsi məqsədəuyğun göründü. Bu baxımdan hesab edirəm ki, Cinayət Məcəlləsində məhz bu hallara görə, yəni ağır nəticələrə, ölümə səbəb olduqda azadlıqdan məhrum etmə cəzasının nəzərdə tutulması tam yerindədir. Amma, eyni zamanda, həm Cinayət Məcəlləsində, həm də İnzibati Xətalar Məcəlləsində cərimə sanksiyaları da bir neçə dəfə artırılır. Məsələnin mahiyyəti budur və həmkarlarımız birinci oxunuşda da müdafiə etmişdilər, indi də səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanunun əsas kimi qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Müzakirələrə başlayırıq. Buyursun Gövhər Baxşəliyeva.

**G.Baxşəliyeva.** Çox sağ olun, Oqtay müəllim. Mən bütövlükdə bu təklif olunan dəyişikliklərlə razıyam, onlara səs verəcəyəm. Lakin mən bir məsələ haqqında danışmaq, öz təklifimi vermək istərdim. Bu, 45-ci məsələ, İnzibati Xətalar Məcəlləsində dəyişikliklərlə əlaqədardır. Belə ki, burada, 243.0.9-cu maddədə yerin təkindən istifadə zamanı elm və mədəniyyət üçün maraq doğuran obyektlər aşkar edilərkən həmin sahədə işlərin dayandırılmamasına, lisenziya və ya icazə verən orqana məlumat verilməməsinə görə əvvəl müəyyən olunmuş məbləğ artırılır. Amma mən hesab edirəm ki, bu artım bir az da çox olmalıdır. Nəyə görə? Mən çalışacağam öz fikrimi əsaslandırım.

Məlumdur ki, hər bir xalqın qədim tarixinin, etnogenezinin öyrənilməsində ən etibarlı mənbə məhz arxeoloji abidələrdir. Azərbaycan xalqı çox zəngin, qədim tarixə malikdir. Bu tarixin öyrənilməsində arxeoloji abidələrin tədqiq olunmasının çox böyük əhəmiyyəti vardır, çünki abidələr, demək olar ki, keçmiş dövrün salnaməsidir. Bununla əlaqədar həmin o qazıntılar vaxtı bəzən elə eksponatlar aşkar olunur ki, onlar nadir xarakter daşıyır. Məhz belə eksponatlar sayəsində müəyyən olunmuşdur ki, bizim Azərbaycan insan sivilizasiyasının beşiklərindən

biridir. Məhz belə tapıntılar, məsələn, Azıx mağarasında tapılmış qədim insan çənəsi ki onun 50 illiyi bu yaxınlarda böyük beynəlxalq konfransla qeyd edilmişdir, tariximiz üçün xüsusi əhəmiyyətə malikdir. Bu gün ermənilər Əskəranda belə qazıntılar apararaq hansı isə eksponatlar tapır, saxtalaşdırır və sübut etməyə çalışırlar ki, Böyük Ermənistanın paytaxtlarından biri, Tiqranakert məhz bu torpaqlarda olubdur. Yəni ki, bu eksponatların tapılması, aşkar edilməsi, qorunması bizim üçün müstəsna əhəmiyyət kəsb edir.

Qala arxeoloji qoruğu olduqca maraqlı, çox zəngin eksponatlar saxlanılan bir qoruqdur. Bu yaxınlarda xarici qonaqları ora aparmışdıq. Onlar orada açıq havada saxlanılan eksponatlara valeh oldular və dəfələrlə vurğuladılar ki, belə eksponatlar açıq şəraitdə deyil, mütləq üstüörtülü yerdə saxlanmalıdır ki, zamanla öz nadirliyini itirməsin. Yəni bizim torpaq qədim eksponatlarla zəngindir. Mənim yadımdadır, Bərdədə bizim uşaqlıq dövründə kim isə ev tikəndə, bir balaca qazıntı aparanda mütləq qədim əşyalar aşkar olunur, çıxarılırdı. Qədim sikkələr aşkar olunurdu. Ona görə mən düşünürəm ki, bax, burada fiziki şəxslər üçün nəzərdə tutulan 500 manatdan 2 min manatadək cərimə məbləği bu gün üçün azdır, çünki o eksponatlar əksər hallarda çox nadir xarakter daşıyır.

Bilirsiniz ki, ulu öndərimiz də arxeoloji ekspedisiyaları daim təşviq edirdi, ölkə Prezidenti İlham Əliyev də bu gün daim təşviq edir. O ekspedisiyalar vaxtı tapılan eksponatların qorunub saxlanılması lazımdır. İstər Naxçıvanda, istərsə də Şamaxıda, Qəbələdə, Bərdədə, bir çox digər regionlarda aparılan qazıntılarda bu gün çox nadir tapıntılar aşkar edilir. Bu tapıntılar xalqımızın etnogenezinin təsdiq edilməsində, öyrənilməsində, eləcə də tariximizin

ayrı-ayrı mərhələlərinin araşdırılmasında müstəsna rol oynayır. Hətta daha qədim dövrdən sonrakı, orta əsrlər dövrünün yazılı abidələri bu gün bizə çatmış olsa da, o yazılı abidələrdə əks olunan məqamlar arxeoloji tapıntılarla öz təsdiqini tapanda daha mötəbər, daha dəqiq hesab olunur. Ona görə mən düşünürəm ki, bu məsələnin vacibliyini nəzərə alaraq, bu məbləğ bir qədər artırılmalıdır. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa çıxış edən yoxdursa, xahiş edirəm, 44-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

45-ci məsələ, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik haqqında Əli müəllim çıxışında dedi. Qanun layihəsinin

ilk öncə əsas kimi qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddələr üzrə müzakirələrdə iştirak etmək istəyən, çıxış edən varmı? Yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

46-cı məsələ "İnzibati icraat haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, "İnzibati icraat haqqında" Qanunun 4-cü maddəsi inzibati orqanlar arasında səlahiyyət və aidiyyətlə bağlı məsələləri müəyyənləşdirir. Bu maddənin əlavə olunması yerli icra hakimiyyəti orqanı ilə mərkəzi icra hakimiyyəti orqanı arasında səlahiyyət və aidiyyət mübahisəsinin məhkəmə qaydasında həllini müəyyənləşdirir. Birinci oxunuşda təkliflər daxil olmamışdı, ikinci oxunuşda səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Maddələr üzrə müzakirələrə ehtiyac varmı? Yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsinə ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 47-ci məsələ. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, bu barədə birinci oxunuş zamanı məlumat vermişdim. Hamımız bilirik ki, biznesə başlamaq ilk növbədə hüquqi şəxsin qeydiyyatından keçir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində belə bir layihə təqdim olunub. Söhbət hüquqi şəxsin qeydiyyatı zamanı qanuni təmsilçi barədə qeydiyyat orqanına yanlış məlumatların verilməsinin qarşısının alınmasının mexanizminin yaradılmasıdır. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda belə bir qaydanı müəyyənləşdirməklə biz beynəlxalq hesabatlarda da bir neçə başlama indikatorunda daha əlverişli bir yer tuta bilərik. İkinci oxunuşda səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinin əsas kimi qəbuluna münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddələri müzakirə etməyə ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti 48-ci məsələ. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Bu dəyişiklik, daha doğrusu, bu əlavə yeni şəxsiyyət vəsiqəsinə keçidlə bağlıdır. 15 yaşı tamam olmamış vətəndaşlardan əl, barmaq izləri götürülmür. Ümumiyyətlə, məlumat vermək istəyirəm ki, bu qanunun qəbulu ilə bağlı keçid müddəaları var və 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşlarının fərdi indikator kartı 2020-ci ilin yanvar ayının 1-dən tətbiq olunacaq. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddələr üzrə müzakirə etməyə ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsinin ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 49-cu məsələsi. "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. İkinci oxunuş. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Bu layihə barədə məlumat vermişdim. Təqdirə layiq olan bir təklifdir. Belə ki, təklif olunur, xarici ölkələrdə fəaliyyət göstərən bizim hərbi attaşelik aparatının zabit heyəti də, beynəlxalq təşkilatlardakı hərbi nümayəndələr və onların müavinləri də diplomatik pasportlarla təmin olunsunlar. Bundan başqa, təklif olunur ki, bu pasportlar müvafiq icra hakimiyyəti orqanının xarici dövlətlərdə və beynəlxalq təşkilatlardakı nümayəndələrinə də verilsin. Bu məsələ millət vəkilləri tərəfindən təqdir olunub, səs verilib. Bilirsiniz ki, iqtisadi əlaqələrlə bağlı bizim bir sıra nümayəndəliklər yaradılır.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, Mərkəzi Seçki

Komissiyasının üzvlərinə də diplomatik pasportların verilməsi barədə bir təklif olmuşdu. Qeyd etməliyəm ki, belə bir təklif bizim komitəyə də daxil olmuşdu. Biz bu məsələni müvafiq qanunvericilik subyektinin diqqətinə çatdırmışıq və o, öyrənilmə ərəfəsindədir. Əgər belə bir təşəbbüs olarsa, bu barədə məlumat verəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddələr üzrə müzakirəyə ehtiyac var? Yoxdursa, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs verմədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəliyin 50-ci məsələsi. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Bu məsələ, əslində uyğunlaşdırma xarakteri daşıyır. Amma mahiyyəti ondan ibarətdir ki, Cinayət Məcəlləsinin 213-cü maddəsində dövlət sosial sığorta haqları tamamilə ödənildikdə şəxsin cinayət məsuliyyətindən azad olunması məsələsi var. Tamamilə oxşar ifadələr Cinayət Məcəlləsinin 162-1-ci, yəni əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi maddəsində də öz əksini tapır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinin maddələrlə müzakirəyə olunmasına ehtiyac yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Nəhayət, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.
51-ci məsələ Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Buyursun Əli Hüseynli

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, 51 və 52-ci məsələlər bir-biri ilə üzvi sürətdə bağlıdır. Əslində, İnzibati Xətalar Məcəlləsinə təklif olunan bu əlavə növbəti məsələnin mahiyyətindən irəli gəlir. Belə ki, “Bələdiyyələrin statusu haqqında” Qanunda, yəni növbəti qanunda qeyd olunur ki, qəbiristanlıqların salınması və idarə olunması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilir. Məlumat üçün deyim ki, – keçən dəfə də demişdim, – bu qaydalar Nazirlər Kabineti tərəfin-

dən müəyyən edilir. Burada müvafiq icra hakimiyyəti orqanı deyəndə Nazirlər Kabineti nəzərə tutulur. Həmin qaydaların tələblərini pozan şəxslər İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

Məhz bu müddəadan irəli gələrək İnzibati Xətalar Məcəlləsinin məsuliyyət yaradan 516-1-ci maddəsində Qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulmasına görə bir neçə dispozisiyada bir neçə halda minimum 100 manatdan maksimum 500 manata qədər cərimə sanksiyasının nəzərdə tutulması təklif olunur.

Birinci oxunuş zamanı İnzibati Xətalar Məcəlləsinin mahiyyəti ilə bağlı deyil, daha çox bələdiyyələrin statusu, qəbiristanlıqların idarə olunması ilə bağlı müəyyən çıxışlar olmuşdu. Odur ki, heç bir təklif olmadığına görə, ikinci oxunuşda da səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. 51-ci məsələnin əsas kimi qəbul olunmasına, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Maddə-maddə müzakirələrə ehtiyac yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

51-ci məsələyə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 51-ci məsələ ikinci oxunuşda qəbul edildi.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Əgər maddələr üzrə müzakirələrə ehtiyac yoxdursa, xahiş edirəm, bir də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

"Bələdiyyələrin statusu haqqında" Qanunu bütövlükdə səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 53-cü məsələsi. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. İkinci oxunuş. Buyursun Arif Rəhimzadə.

**A.Rəhimzadə,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Sağ olun, Oqtay müəllim. Hörmətli həmkarlar, bu düzəliş 2017-ci ilin dekabrında qəbul olunmuş "Bələdiyyələrin statusu haqqında" Qanunla əlaqədardır. Orada nəzərdə tutulurdu ki, bələdiyyə ərazisində qəbiristanlıqların salınması, saxlanması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və

yas mərasimlərinin təşkilində bələdiyyələr iş aparmalıdırlar.

Məsələ burasındadır ki, keçən müzakirədə burada yas mərasimlərinin aparılmasının bələdiyyələrə həvalə edilməsi ilə əlaqədar etirazlar oldu. Daha doğrusu, belə bir fikir ifadə olundu ki, yas mərasimlərinin aparılması çox böyük xərc tələb edir və bunu bələdiyyənin üzərinə qoymaq olmaz. Yas mərasimlərinin aparılması məsələsi nəzərdə tutulan düzəlişdə deyil, qanunda qabaqcadan təklif olunan redaktədədir. Buna baxmayaraq, biz müvafiq orqanlarla əlaqə saxlamışıq. Ümid edirik ki, buradan bu məsələni çıxaracağıq. Xahiş edirəm, səs verəsiniz. Sağ olun.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Əgər maddələr üzrə müzakirəyə ehtiyac yoxdursa, xahiş edirəm, bir də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İkinci oxunuşda qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Nəhayət, bugünkü iclasın sonuncu məsələsi Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun layihəsidir. İkinci oxunuş. Buyursun Aqiyə Naxçıvanlı.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Hörmətli cənab Sədr, hörmətli həmkarlarım! Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun layihəsi Milli Məclisin 2018-ci il 12 iyul tarixli iclasında birinci oxunuşda müzakirə olunaraq qəbul olunmuşdu. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2018-ci il 25 sentyabr və İnsan hüquqları komitəsinin 3 oktyabr tarixli iclaslarında qanun layihəsi deputatların təklifləri də nəzərə alınaraq, yenidən müzakirə olunmuş və Milli Məclisin payız sessiyasında ikinci oxunuşa təqdim edilməsi qərara alınmışdır.

Hörmətli həmkarlar, qanun layihəsinin Mili Məclisin və komitələrin iclaslarında müzakirəsi zamanı dəyərli həmkarlarım Musa Quliyev, Elman Nəsirov, Qənirə Paşayeva, Hikmət Məmmədov, Fazil Mustafa, Sona Əliyeva, Əfla-

tun Amaşov, Tahir Kərimli çıxış edərək öz təkliflərini vermişlər. Nəzərinizə çatdırmaq istəyirəm ki, deputatlarımız tərəfindən səsləndirilən, yaxud təqdim olunan təkliflərin hamısına Prezident Administrasiyasının müvafiq şöbəsi ilə birlikdə yenidən baxılmış və belə nəticəyə gəlinmişdir ki, təkliflərin əksəriyyəti qanun layihəsinin ayrı-ayrı müddəalarında təsbit olunmuş, yaxud digər müvafiq qanunvericilik aktlarında, o cümlədən Ailə Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, Cinayət Məcəlləsində və "Uşaq hüquqlarının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bəzi təkliflər isə mariflləndirmə xarakteri daşıdığından və dövlət proqramlarında, digər qanunvericilik aktlarında nəzərdə tutulduğundan qanunun mahiyyətinə aid edilməmişdir.

Ancaq hörmətli deputatlarımız tərəfindən təklif olunan bəzi fikirlər, o cümlədən redaktə xarakterli təkliflər nəzərə alınmışdır. Belə ki, deputatlarımızın təkliflərinə əsasən qanun layihəsinin 1.0.5-ci maddəsinə əlavələr olunmuşdur. Qanun layihəsinin qeyd olunan, yəni 1.0.5-ci maddəsinin əvvəlki variantında "əzab və xəsarət yetirmək" kimi qeyd olunan ifadənin indiki variantda deputatlarımızın təklifi ilə "əzab vermək və xəsarət yetirmək" kimi yazılması təklif olunmuşdur. Eyni zamanda, həmin maddədə, yəni 1.0.5-ci maddədə qeyd olunan "adam öldürmə" ifadəsi, "adam və heyvan öldürmə" kimi yeni variantda təklif olunmuşdur. Deputatlarımızın qanunun icrasına ictimai nəzarətin olması təklifi əsasında qanun layihəsinin 17-ci maddəsi dəyişdirilərək aşağıda qeyd olunan 3 maddə əlavə olunmuşdur.

Maddə 17. Qanunun icrasına nəzarət. 17.1. Bu qanunun icrasına nəzarət dövlət və ictimai nəzarət formalarında həyata keçirilir. 17.2. Bu qanunun icrasına dövlət nəzarəti fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq dövlət

orqanları tərəfindən həyata keçirilir. 17.3. Bu qanunun icrasına ictimai nəzarət fiziki şəxslər və vətəndaş cəmiyyəti institutları tərəfindən təşkil olunur və həyata keçirilir.

Hörmətli həmkarlar, cənab Prezident tərəfindən parlamentə təqdim olunan qanun layihəsinin müddəaları mükəmməl səviyyədə, məzmunlu, yığcam və sadə üslubda yazılmışdır. Bir daha qeyd edim ki, qanun layihəsi beynəlxalq hüquq normalarına, Konstitusiyaya, digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır. Onu da vurğulamaq istəyirəm ki, belə bir qanun inkişaf etmiş ölkələrin əksəriyyətində, o cümlədən Türkiyə, Rusiya, Qazaxıstan kimi qonşu dövlətlərdə və Avropa dövlətlərində də qəbul edilmişdir. Düşünürəm ki, qanun layihəsi uşaqların zərərli informasiyadan qorunması üçün nəzərdə tutulan əksər müddəaları özündə əks etdirir. Bu qanun dövlətimizin gələcəyi olan uşaqların həm fiziki, həm də mənəvi sağlamlığının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Dəyərli həmkarlarım, ona görə də sizdən xahiş edərdim, qanun layihəsinin qəbul olunmasına səs verəsiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 79 |
| Nəticə: Yetərsay yoxdur | |

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir də səsə qoyarıq. Amma hamımız iki oxunuşdan, üç oxunuşdan danışırdıq. Diqqətli olmaq lazımdır, iclas başlayanda mən sizə dedim. Xahiş edirəm, bir daha səsvermə keçirək.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. Buyursun Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli Sədr. Hörmətli deputatlar, komitə iclaslarında iki dəfə bu barədə danışmışam, ona görə vaxtınızı almaq istəmirəm. Amma məni narahat edən odur ki, həqiqətən, bu qanunun icrası ilə bağlı müəyyən çətinliklər olacaq. Əvvəl təklif etmişdim, uşaqların cəmiyyətimizin böyük bir hissəsi və gələcəyimiz olmasını nəzərə alıb, xüsusi bir komissiya yaradılsın, bunun, hətta icra orqanı kimi yaradılması daha yaxşı olardı. Görünür, qəbul olunmayıb. İndi bu mümkün deyilsə, heç olmasa, Daxili İşlər Nazirliyinin yetkinlik yaşına çatmayanlarla məşğul olan xüsusi şöbələri, idarələri, inspektorları var, onlara müəyyən səlahiyyətlər verilsin ki, deyək, internet klublarında, internet provayder mərkəzlərində, radio, televiziya verilişlərinin ötürücü mərkəzlərində müəyyən yoxlamalar həyata keçirib, arayışlar tərtib edə bilsinlər. Yəni bunu çox ciddi nəzərə almaq lazımdır. Çünki Bahar xanım komitədə çıxış edən zaman haqlı olaraq dedi ki, məsələn, ailədə buna nəzarət

etmək çox çətin olacaq. Bəzən başqaları da çıxış edir, valideynlər bundan çox narahatdırlar. Uşaqlar yayınırlar, baxdıqları videonu gizləyirlər, qapayırlar. Ümumiyyətlə, doğrudan, bu çox çətin bir məsələdir, olduqca çətin məsələdir. Ona görə bunun, elə qanunun özünün də icrası haqqında daha yaxşı düşünməliyik.

Qanunun 1.0.8 maddəsində, – mən komitədə də demişdim, – söhbət ailə institutunun heçə endirilməsindən gedir. Maddənin adında termin olaraq "nüfuzdan salma" işlədilir, bunun daha sonra "heçə endirilməsi" kimi verilməsi doğru deyil, çünki "heçə endirmək" hüquqi ifadə deyil. O ifadəni eyni təsir gücünə malik digər bir ifadə ilə əvəz etmək olar.

Hörmətli Sədr, əgər bu qanunun müzakirəsindən sonra deputatlara vaxt verilməzsə, – bizə müraciətlər olub, – icazə versəydiniz, bir neçə dəqiqə danışardım. Əgər imkan varsa və vaxt ayrılmayacaqsa.

**Sədrlik edən.** Birincisi, vaxt ayrılmayacaq. Onsuz da vaxtı 5 dəqiqəyə keçiririk. Buyur, əgər qısadırsa, xahiş edirik.

**T.Kərimli.** Hörmətli Sədr, söz verdiyinizə görə minnətdaram. Bizə, bir sıra deputatlara müraciət daxil olub. Bilirsiniz, sabah yox, birigün Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının qəbul edildiyi gündür və bununla bağlı Cümşüd Nuriyev və digərlərinin adından bir sıra müraciətlər daxil olub. Bu müraciətlər də istiqlalçı deputatlara, 1991-ci ilin mart ayında SSRİ-nin saxlanılması ilə bağlı referendum keçirilərkən bunun əleyhinə səs verən 43 deputata, – rəhmətə gedənlərin, sağ qalanların adları sadalanır, – onların ailələrinə xüsusi qiymət verilməsi ifadə olunub. Hörmətli Sədr, bununla bağlı mən əvvəla, dövlət istiqlaliy-

yətimizin qorunmasında müstəsna xidməti olan və bu günlərdə ilk dəfə prezident seçilməsinin 15 illiyini qeyd edən cənab Prezidentdən tutmuş səngərlərdəki əsgərlərimizə kimi hamıya təşəkkür edirəm. Çünki xalqımızın bundan böyük, şərəfli hadisəsi ola bilməz. Qeyd etməliyəm ki, doğrudan da, oktyabr ayından əvvəl mart ayında SSRİ-nin saxlanılması barədə referendum keçirilən zaman 43 deputat öz həyatlarımız bahasına, burada ölüm aclığı keçirdik.

Müəyyən məsələlər oldu və bəzən bunu SSRİ-nin dağılması ilə bağlayırlar. Onlar haqlıdırlar, 100 il əvvəl bizim istiqlaliyyətimiz elan olunanda da çar Rusiyası çox güclü, nəhəng idi və eləcə də SSRİ artıq çox güclü nəhəngə çevrilmişdi. Təbii ki, yalnız Baltikyanı ölkələrdə və digər yerlərdə olan milli azadlıq hərəkatları təsir edə bilməzdi. Necə ki SSRİ-ni dağıtmaq istəyən qüvvələr fəaliyyətdə idilər. Əfqanıstanda, Səudiyyə Ərəbistanda baş verənlər, neftin qiymətinin aşağı salınması, Avropaya dostluq neft kəmərlərinin çəkilməsi və sair. Xaricdə SSRİ-ni dağıtma planları var idi. Ölkəni, təbii ki, içəridən dağıdan demokratiya, yenidənqurma və sair üsullar da var idi. Çox təəssüf edirəm ki, bunların ən böyük zərbələrindən biri bizə dəydi. Ermənilər, mənfur qonşularımız bizim dədə-baba torpaqlarımızdan soydaşlarımızı qovdular, Qarabağ məsələsi başladı. Bizim Qarabağ və qaçqınlarla bağlı hərəkatımız da sonra milli azadlıq hərəkatı ilə birləşdi və bu məsələlər ortaya gəldi.

Çox gözəl bir hadisə idi ki, bu 43 nəfərin arasında sonradan bizim istiqlal bayrağımızı Naxçıvanda ucaldan çox böyük dövlət adamı Heydər Əliyev də var idi. Onunla birlikdə biz istiqlaliyyətimizin lehinə səs verdik. 350 adamdan cəmisi 43 nəfər. Amma bu bizə asan başa gəlmədi. Burada, bircə məsələni qeyd etmək istəyirəm, rus zabiti,

mayor bizi buradan çıxardıb aparanda, mən deyəndə ki, toxunulmazlıq hüququmuz var, bizə o qədər zorakılıq göstərmədi, nəinki bizim milisimiz. “Jiquli”də məni buradan götürüb aparan iki milisdən biri ayaqlarını boğazıma keçirmişdi, o biri üstümdə oturmuşdu. Aparıb keçmiş Moskva prospektində, çöldə buraxdılar və oradan gecə yarısı saat 3-də, 4-də biz Yasamala gəlməli olduq.

Yəni istiqlalımızla bağlı mübarizə aparmışıq. Bu, öz-özünə əmələ gəlməyib və hesab edirəm ki, indi bunu, əlbəttə, inkişaf etdirmək, dəyər vermək də lazımdır. Vaxtınızı çox almaq istəmirəm və hesab edirəm ki, istiqlaliyyətimizdən böyük bir məsələ yoxdur. Cənab Prezidentin son dövrlər başladığı hərəkata hamımız kömək etməli, dəstək olmalıyıq. Elan etmək istəyirəm ki, artıq bizim iqtisadiyyatımız, hərbimiz güclü şəkildə bərpa olub. İndi istiqlalımızın, müstəqilliyimizin hər bir vətəndaş, cəmiyyət tərəfindən duyulmasını hiss edirik. Regionlarda iş yerlərinin açılması, əmək haqqı, sosial problemlərin həlli, vəziyyətin yaxşılaşması ilə bağlı işlər görülüb. Bu iş daha yaxşı olacaq. Azərbaycanın gələcəyinə inanırıq.

Bir daha bu xidmətlə bağlı, xüsusən cənab Sədr, Sizin rəhbərliyinizlə bizim parlamentimizin üzvlərinin də xidməti var, demək istəyirdim. Hamıya təşəkkür edirəm və müstəqilliyimizi daha çox qiymətləndirməyimizin tərəfdarıyam. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Xahiş edirəm, 5 dəqiqəyə keçirik, tənəffüssüz isləyəcəyik, çünki axırıncı məsələdir. 10 nəfər də deputat yazılıb. Buyurun.

**E.Nəsirov.** Hörmətli həmkarlar, hesab edirəm ki, Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun layihəsi çox böyük əhəmiyyəti olan qanun layihəsidir. Çünki söhbət uşaqlardan, bizim gələcəyimizdən gedir. Hör-

mətli Bahar xanımın rəhbərliyi altında komitədə oktyabr ayının 3-də bu qanunun çox ciddi müzakirəsi keçirildi, çoxsaylı qeydlər oldu. Hesab edirəm ki, bu gün Azərbaycandakı əhalinin 80 faizi internet istifadəçisidir və bu gün sosial şəbəkələrdə 3 milyondan artıq istifadəçi var. Nəzərə alsaq ki, bu reallıq fonunda uşaqlar virtual informasiya məkanının ən fəal iştirakçılarıdırlar və belə olan halda sosial şəbəkələrdə uşaqların davranışı, onların bir-biri ilə ünsiyyəti və təması bir çox hallarda çox təhlükəli tendensiyaların baş verməsinə gətirib çıxarır. Təsadüfi deyildir ki, bu gün virtual aləmi olduqca qaranlıq bir küçəyə bənzədirlər və o küçədə çoxsaylı, milyonlarla insan hərəkətdədir və burada adi insanlarla yanaşı, potensial, real cinayətkarlar da var. Uşaqların bax belə, olduqca mürəkkəb, olduqca qaranlıq bir mühitdə necə davranması, təbii ki, əsas məsələlərdən biridir və hesab edirəm ki, bu nöqteyi-nəzərdən də bu qanunun bizim üçün böyük əhəmiyyəti var.

Mən keçən dəfə komitə iclasında da bunu söylədim. Bir arzumdur və onu da sizinlə bölüşmək istəyirəm. Çox yaxşı olardı ki, biz Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunu qəbul etməklə yanaşı, eyni zamanda, uşaqların informasiya təhlükəsizliyi konsepsiyasını da hazırlayaq. Yəni məhz bu konsepsiya əsasında hesab edirəm ki, bundan sonra müvafiq sahədə digər qanunların qəbulu da mümkün ola bilər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Hörmətli cənab Sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun layihəsi yaxşı hazırlanıb, müasir tələblərə cavab verir. Bir sözlə, onu deyim ki, layihənin hazırlanmasında beynəlxalq təcrübədən səmərəli istifadə edilib. Bu müsbət haldır, ona görə də işçi

qrupuna dərin təşəkkürümü bildirirəm.

Mən burada iki məsələyə toxunmaq istərdim. Birincisi, təklif edərdim ki, ümumi müddəalara “dini xurafat” anlayışını, yaxud da ifadəsini əlavə edək. Bu, indiki günümüz üçün çox vacibdir. Çünki bəzi ailələrdə uşaqlara bilməyərəkdən, bəzən də savadsızlıqdan, əsasən də, şüurlu şəkildə xurafatçılığa əsaslanan fanatik təsəvvürlər aşılanır. Bunlar da özünü məktəbdə, hətta sonralar da göstərir. Əlamətdar haldır ki, artıq orta məktəblərdə Həyat bilgisi fənninin tədrisi zamanı şagirdlərə islam və müxtəlif dinlər haqqında məlumatları çatdırırlar, onlara dinin mahiyyətini aşılayırlar. Yəni əsl din nədir, əsl islam nədir? Düşünürəm ki, əgər biz həmin ifadəni, yəni “dini xurafat” ifadəsini qanuna əlavə etsək, xurafatçılığa, dini radikalizmə qarşı daha əsaslı mübarizə apara bilərik.

İkinci qaldırdığım məsələ ekspert şurası ilə bağlıdır. Layihədə göstərilir ki, informasiya məhsullarının yaşa görə təsnifatlandırılması ekspertlər tərəfindən həyata keçirilir. Ekspert rəyindən narazı qalan informasiya məhsulunun istehsalçısı və ya yayıcısı müvafiq icra hakimiyyəti orqanın yaratdığı ekspert şurasına şikayət verə bilər. Təklif edərdim ki, ekspert şurasının səlahiyyətləri tam olaraq bu qanunda öz əksini tapsın. Onda şura daha müstəqil olar. Çünki onun çıxaracağı qərar çox vacibdir. Yoxsa, günlərin birində informasiya məhsulunun istehsalçısının, yaxud da yayıcısının təkidi ilə uşaqlarımız zərərli məlumatlarla, hətta primetime vaxtında belə tanış ola bilərlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas.

**A.Abbas.** Təşəkkür edirəm, Oqtay müəllim. Çox ciddi qanundur və səs verəcəyik. Hazırlayanlar da sağ olsun, amma bu qanuna bəlkə belə bir əlavə edək ki, Azərbay-

canda zərərli informasiyaları dərsliklərin özü yayır. Dərsliklərdə o qədər zərərli informasiya var ki, bunu bütün qəzetlər yazır, saytlar yazır, ekspertlər deyir, növbəti il yenə həmin səhvlər təkrar olunur. Mənasız şeir yığınları, mənasız nağıl yığınları. Məmmədhüseyn Təhmasib sovet hökuməti vaxtı Azərbaycan xalqını uydurma nağıllara öyrətdi, Məlikməmməd, Ağ atlı oğlan, filan. İndi də dərsliklərdə uşaqlara elə nağıllar öyrədirlər ki…

Dünən bizim redaksiyaya valideynlər gəlmişdi. Deyir, bu sualı mənə izah eləsinlər, ikinci sinif şagirdinə verilib ki, Qarabağın qayıdacağına inanırsınızmı? Uşaq da cavab verir yox, atası da döyür. Yəni ikinci sinifdə oxuyan uşağa bu nə münasibətdir? Dərsliklərdə belə şeylər çoxdur. Ona görə istərdim ki, bu dərslikləri hazırlayanlar məsuliyyət daşısınlar. O gün qəzetlər vermişdi, üçüncü sinfin dərsliyində erotika var. Bunlara heç baxan yoxdur. Ya ləhcələr… Uşaq normal danışmalıdır. Hamı deyir ki, niyə uşaqları rus dilli məktəblərə qoyurlar? Rus dilli məktəblərdə belə hallar  yoxdur, ona görə camaat məcburdur, uşağı ora qoyur ki, orada əməlli-başlı dərs keçsinlər. Yeddinci sinifdən sonra orta məktəbə heç kim getmir, hamı repetitor yanına gedir. Ona görə mən demək istəyirəm ki, bura dərslikləri də əlavə eləsələr, çox yaxşı olar. Televiziyadan çox bəzi dərsliklər zərər verir.

**Sədrlik edən.** Sağ olun. Sevinc Fətəliyeva.

**S.Fətəliyeva.** Hörmətli Sədr, hörmətli millət vəkilləri! Təqdim olunan qanun layihəsi, düşünürəm ki, uşaq hüquqlarına aid olan qanunlardan ən vacibidir. Çünki müasir dövrdə zərərli informasiyaya rast gəlmək çox asan məsələdir. Yaxın keçmişdə biz məişət zorakılıqlarının, fiziki cəzaların, cinsi zorakılıqların, uşaq psixikasına mənfi təsir göstərmə hallarının, intiharların səbəblərini ayrı-ayrılıqda

araşdırıb, onlarla mübarizə aparırdıqsa, bu gün kiber mühit, internet bütün bu amilləri birləşdirib və böyük bir təhlükəyə çevrilib. Niyə internetə daha çox diqqət yetirirəm, çünki bu gün internet həm televiziyanı, həm də radionu tam əvəz etməkdədir. Hər bir insanın, uşağın həyatının ayrılmaz hissəsinə çevrilib. Hətta həyat tərzimizi də dəyişib. Xüsusilə bu, uşaqlara aiddir. Onların ünsiyyət forması dəyişir, məlumatların əldə olunması və ötürülməsi imkanları dəyişir.

Düşünürəm ki, qanun layihəsində uşaqların zərərli informasiyadan qorunması ilə bağlı daha çox internetdən gələn təsirlərin nəzərə alınması daha faydalı olardı. Çünki Azərbaycanda internet tam azaddır və internet istifadəçilərinin sayı günü-gündən artır. Düşünürəm ki, bu çox önəmli məsələdir. Bu gün internet böyük imkanlar yaradır. Amma təqdim olunan məlumatların əksəriyyəti etibarlı və faydalı sayıla bilməz. Materialların dəqiqliyini qiymətləndirmək üçün şəbəkə istifadəçiləri tənqidi düşünməlidirlər. Çünki əsas təhlükələrdən biri odur ki, hər kəs bu gün internetdə hər cür informasiyanı yaya bilər. Bu, xüsusilə uşaqlara aiddir. Çünki uşaqlar adətən düşünür ki, bu məlumat internetdə yayılıbsa, demək, doğrudur, düzgündür. Qəzet-jurnallarda redaktor, korrektor çalışır. Amma internetdə heç kim bu informasiyanın nə qədər doğru olub-olmamasını yoxlamır. Ümumiyyətlə, media ilk növbədə uşaqları informasiya ilə təmin etməli, maarifləndirməyə, vətənpərvərliyə xidmət etməlidir. Bu şəraitdə düşünürəm ki, bu qanun layihəsinin qəbul olunmasına müasir dövrdə böyük zərurət var.

Ümumiyyətlə, uşaqların informasiya təhlükəsizliyi bir neçə amildən ibarətdir. Birincisi qanunvericilik bazasının yaradılması, ikincisi isə həm uşaqların, həm də valideynlə-

rin rəqəmsal bilik və bacarıqlarının formalaşdırılmasıdır. Birinci amilə biz artıq nail olmuşuq. Müzakirə olunan qanun layihəsi uşaq hüquqlarını müdafiə edən, onların təhlükəsizliyini təmin edən bir platformadır. Növbəti mərhələ isə ondan ibarətdir ki, qəbul etdiyimiz qanunun müddəaları əhaliyə lazımınca çatdırılsın. Uşaqlar informasiya əldə olunmasında öz hüquqlarını bilsinlər.

İkinci amilə nail olmaq üçün həm uşaqları, həm də valideynləri digər istiqamətdə maarifləndirmək lazımdır. Burada internetdən, sosial şəbəkələrdən istifadə olunması, onlayn oyunlarının oynama qaydaları və risklər, bir sıra digər fəaliyyətlər haqqında bilmək, onlara riayət etmək gərəkdir. Düşünürəm ki, bunun üçün həm parlamentin, həm müvafiq qurumların, həm də qeyri-hökumət təşkilatlarının birgə fəaliyyət göstərməsi çox faydalı olardı. Ümumiyyətlə, mən qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva**. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Mən də qanun layihəsini dəstəkləyirəm. Aqiyə xanım başda olmaqla bu qanunun hazırlanmasında əməyi keçmiş bütün insanlara da təşəkkür edirik, çünki bu, günümüzün reallığında ən vacib qanun layihələrindən biridir. Uşaqların zərərli informasiyadan qorunmasına boyük ehtiyac var. Özəlliklə indiki məqamda, bugünkü dünyada ki, internet məkanına giriş azaddır, insanlarımızın əksəriyyəti internet istifadəçisidir, rəsmi məlumatlara görə, çoxu da, sosial şəbəkə istifadəçiləridir. Çox təəssüf ki, internet məkanına nəzarət, uşaqları zərərli informasiyadan qorumaq imkanları da çox çətindir. Bu gün dünyanın bir çox inkişaf etmiş ölkələrinin üzərində düşündüyü məsələlərdən biridir. Çünki burada bəzən qadağalar effektli olmur. Qadağalarla

nələrəsə nail olmaq çətin olur. Çünki bu məkan o qədər böyük məkandır ki, burada həddindən artıq xüsusi maraqlı qruplar var. Məsələn, bir az öncə Əflatun müəllim öz çıxışında vurğuladı ki, fanatizmin, xurafatçılığın, missionerliyin yayılmasında maraqlı olan xüsusi qruplar da var. Onlar müxtəlif sahələrdə, uşaqları təsir altına alan ciddi, narahatedici mövzularda çox fəaldırlar. Uşaqlar da bu gün telefonlardan, kompüterlərdən internetə rahat daxil ola bilirlər və ailələrin də buna nəzarəti asan olmur.

Problemin kökündə bir məsələ də durur – maarifləndirmənin, əslində zəif olması. Ona görə bu, çox önəmli bir qanundur və bu qanunun həyata keçməsində, yaxşı işləməsində mən o çağırışı səsləndirmək istəyirəm ki, bəzi qurumların, təşkilatların üzərinə xüsusi vəzifələr düşəcək. Özəlliklə bu günlərdə mən təhsil vasitəsilə gəncləri sosial şəbəkələrin, sosial medianın zərərli təsirlərindən qorumağın yolları mövzusunda keçirilən bir konfransda iştirak etdim. Bu mövzuda hətta beynəlxalq tədbirlər, seminarlar keçirilir. Düşünürəm ki, bizim Təhsil Nazirliyimiz də uşaqlarımızın bu sahədə maarifləndirilməsi üçün müəyyən mexanizmlər, yollar düşünməlidir. Məktəblərdən başlayaraq biz uşaqlarımızı maarifləndirməliyik ki, zərərli informasiya nədir, onlara necə təsir edə bilər, bundan necə qorunmalıdırlar. Məktəblərdə uşaqların maarifləndirilməsi işi gücləndirilməlidir.

İkincisi, kütləvi informasiya vasitələrinə də bu çağırışı edirik. Çünki kütləvi informasiya vasitələrimizdə təkcə uşaqların yox, elə valideynlərin də maarifləndirilməsi işi aparılmalıdır. Çünki onların bir çoxuna övladlarının internet resurslarından nə qədər zərərli təsirlərə məruz qala bildiyi bəzən gec, proses keçdikdən sonra məlum ola bilir. Ona görə də biz bu qanun layihəsini dəstəkləyirik, çox

önəmli bir layihədir. Milli Məclisin də şöbələrinə, komissiyalarına təşəkkür edirik və inanırıq ki, artıq ikinci oxunuş da bitir, yaxın zamanlarda bu qüvvəyə minəcək.

Bütün qurumlar, hamımız çalışmalıyıq ki, bu qanun gələcəkdə güclü şəkildə çalışa bilsin, çünki bunun çalışmasında cəmiyyətin birbaşa könüllü dəstəyi lazımdır. Dünya təcrübəsi göstərir ki, sadəcə qadağalar, məhdudiyyətlər bu cür qanunların həyata keçməsində çox ciddi, effektli rol oynaya bilmir. Tam əksinə, təhsilləndirmə, savadlandırma, maarifləndirmə mexanizmləri də məhdudiyyətlər, qadağalar qədər vacibdir. Ona görə mən də bu qanun layihəsini dəstəkləyəcəyəm. təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, media təmsilçiləri! Qanun layihəsi son dərəcə əhəmiyyətlidir, mən də bunu dəstəkləyirəm və buna müsbət münasibətimi ifadə edəcəyəm. Düşünürəm ki, təqdim olunmuş qanun layihəsi uşaqlarımızın həm psixoloji sağlamlığının qorunub saxlanmasına, həm də əxlaqi dəyərlərinin formalaşmasına öz töhfəsini verəcəkdir. Lakin təbii ki, burada hörmətli millət vəkilləri də bu narahatlığı ifadə etdilər və mən də həmin narahatlığa şərikəm, biz yüksək səviyyədə qanunlar qəbul edirik, lakin təəssüflər olsun ki, onun həyata keçirilməsində, icrasında müəyyən problemlərlə qarşılaşırıq.

Bu yaxınlarda biz tütün məhsullarının istifadəsinin məhdudlaşdırılması, müəyyən yerlərdə qadağan olunması ilə bağlı ciddi bir qanun qəbul etdik. Lakin aparılan müşahidələr göstərir ki, həmin qanun layihəsinin həyata keçirilməsində ciddi problemlər var. Yenə də müəyyən olunmuş deyil, ictimai yerlərdə siqaret çəkilir. Yəni insanlar qanun layihəsinə ya bilərəkdən, ya bilməyərəkdən əməl

etmirlər. Ona görə də bu cür qanun layihələrinin həyata keçirilməsi üçün onun ciddi, işlək mexanizmi müəyyən olunmalıdır.

Uşaqların internet şəbəkəsi vasitəsilə yayılan zərərli informasiya məhsullarından qorunması necə təmin olunacaq? Nəzərə alaq ki, bu gün hər bir uşağın əlində ən müasir telefon var və o, telefon vasitəsilə, internet vasitəsilə ən müxtəlif informasiyalar alır. Bu informasiyaların içərisində isə zərərli məqamlar kifayət qədər çoxdur. Bəli, qanun layihəsinin 4-cü maddəsində bütün bunlar öz ifadəsini tapıb. Lakin bu necə yerinə yetiriləcək? Burada deyildiyi kimi, bəli, maarifləndirmə işinə çox ciddi əhəmiyyət verilməlidir. Xüsusi olaraq kütləvi informasiya vasitələri bununla bağlı özünün bütün imkanlarını səfərbərliyə alıb bunu cəmiyyətə təqdim etməlidir.

Mən ümidvaram ki, qanun qəbul edildikdən sonra Cinayət və İnzibati Xətalar Məcəllələrinə də müvafiq əlavələr olunacaq və bu əlavələrdə də, mənə elə gəlir ki, hökmən həm valideynin, həm də uşaqların formalaşmasında mühüm rol oynayan təhsil müəssisələrinin, eyni zamanda, internet klublarının məsuliyyəti də ciddi şəkildə ehtiva olunacaqdır. Digər tərəfdən, elə yerlər var ki, orada müxtəlif uşaq oyunları təklif olunur və onların arasında aqressiv oyunlar da təqdim edilir. Bunların da qarşısı alınmalıdır ki, biz gələcəyimiz olan uşaqlarımızın Azərbaycanın milli-mənəvi dəyərlərinə uyğun formalaşmasında bu qanunun vermiş olduğu imkanlardan istifadə edə bilək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahibə Qafarova.

**S.Qafarova**. Sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Yaxşı məlumdur ki, informasiyanın düzgün istifadə və idarə olunmaması, zərərli informasiyaların döv-

riyyəyə ötürülməsi cəmiyyətin ən həssas təbəqələri olan uşaqlar üzərində bəzən aradan qaldırılması mümkün olmayan fəsadlara yol açır. Uşaqların təhlükəsizliyinin qorunması, onların bir fərd olaraq təhlükəsizliklərinə zəmanət verilməsi, inkişafı demokratik cəmiyyətlərdə mühüm vəzifələrdən biridir. Azərbaycan Respublikası uşaq hüquqlarının qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib və qəbul olunan qanun və qərarlar, Azərbaycan hökuməti tərəfindən atılan əməli addımlar ölkəmizin bu sahədə nümunəvi model təqdim etdiyini göstərir. Hesab edirəm ki, bu qanun layihəsinin hazırlanması və qəbul olunması da ölkəmizin və xalqımızın gələcəyi olan övladlarımızın sağlam, milli-mənəvi dəyərlərimizə uyğun, vətənpərvər ruhda yetişməsi, onların sağlamlığının və təhlükəsizliyinin təmin olunması baxımından olduqca vacib əhəmiyyətə malikdir.

Nəzərə alsaq ki, bu gün müşahidə olunan sərhədsiz informasiya axını ən çox uşaqları və həddi-buluğa çatmayan yeniyetmələri təhdid edir, o zaman bu qanunun önəmi daha da artır. Onu da qeyd etmək lazımdır ki, qanun Azərbaycan Respublikasının qanunvericiliyi və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və digər hüquqi normalara əsaslanır.

Bu qanun layihəsində bütün anlayışlar, o cümlədən informasiya məhsulları, informasiya məhsullarının yaş kateqoriyası, yaş təsnifatı, uşaqlar üçün nəzərdə tutulmuş informasiya məhsulları, informasiya məhsullarının təsnifatlaşdırılması kimi məsələlər açıq şəkildə öz əksini tapır. Burada söhbət yalnız kütləvi informasiya vasitələri ilə ötürülən informasiyadan getmir. Söhbət həm də cəmiyyət həyatının bütün sahələrində bütün informasiya ötürücülərində təqdim olunan zərərli, hətta deyərdim, təhlükəli in-

formasiyalardan uşaqların qorunmasından gedir. Burada məqsəd uşaqların mənafelərinin üstün tutulması, onların hüquq və azadlıqlarının qorunmasıdır. Həmçinin qanun zorakılığın, uşaqlara qarşı qəddar münasibətin, narkotik maddələrin və psixotrop maddələrin, alkoqollu içkilərin və tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın və digər bu xarakterli informasiyanın təbliğinin yolverilməzliyini təsdiq edir.

Qanunun qeyd edilməli olan mühüm spesifik xüsusiyyətlərindən biri də yaş qrupları üzrə uşaqlar arasında dövriyyəsi qadağan olunan və ya məhdudlaşdırılan informasiyaların aydın təsnifatlaşdırılmasıdır. Bu gün qeyd etdiyimiz kimi, bir sıra qanunvericilik aktlarında uşaqların təhlükəli və zərərli informasiyalardan qorunması üçün müəyyən tələblər təsbit olunsa da, real həyatda bu kimi məsələlərin bəzən pozulduğunun şahidi oluruq. Kütləvi informasiya vasitələrində uşaqlar üçün münasib olmayan veriliş və proqramların, bədii film və serialların yayım saatları ilə bağlı tənzimləmələrə, sosial şəbəkələrdə bu tipli informasiyaların qarşısının alınmasına yenə də ciddi ehtiyac yaranır. Bu məsələlərin hazırki qanun layihəsində nəzərə alınması da çox vacibdir.

Son olaraq, hörmətli həmkarlar, mən onu demək istərdim ki, bu qanun layihəsi bizim komitə iclaslarımızda müzakirə olunub, iclaslardan da kənar müzakirə etmişik və bu qanuna səs verəcəyəm. Həmkarlarımı da səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc**. Təşəkkür edirəm. Hörmətli Sədr, mən də birinci növbədə Aqiyə xanıma minnətdarlıq eləmək istəyirəm ki, çox mühüm bir qanun layihəsini müzakirə edirik.

Elə buradaca, birinci növbədə Aqil müəllimin fikirlə-

rindən başlamaq istəyirəm, onu müdafiə etmək istəyirəm. Çünki bizə çox adi, sadə gələn nağıllar, kitablardan balalarımıza nəql etdiyimiz o nağıllar sonra bizim gözümüzün qabağında onların həyatında və cəmiyyətdə öz əksini tapır. Biz bunu çox-çox sonralar başa düşürük, amma əhəmiyyət vermirik. Məsələn, hamımıza adi görünən Məlikməmməd nağılı, sadəcə, bir fəlsəfənin üzərində qurulub. Qəhrəmanın quyudan çıxarılması zamanı qız üstündə qardaş qardaşın kəndirini kəsir. Amma kim bunu belə təhlil eləyir ki? Heç kim o cür düşünmür, uşaqlıq dövründən təhtəlşüurumuza sanki iynə ilə yeridilib. Nə qədər uşaqlarımızın gələcəyi üçün bu Cırtdan nağılını danışmaq olar? Bu obraz onların beynindən çıxmır. Sanki elə bil o nağıl millətin boyuna biçilib, millətə onun fokusundan baxırlar.

"Uşaq və buz". Uşağın buza qarşı mübarizəsi ondan ibarətdir ki, sürüşüb yıxılıb və o, yalnız yazla onu hədələyir ki, bahar gələcək, sənin qəmin artacaq, əriyib, çıxıb gedəcəksən. Uşaq buzun üstündə dayanmaq, dirəniş göstərmək istəmir.

İndi gəldik informasiya təhlükəsizliyinə və psixoloji təhlükəsizliyə. Bu, artıq bizim iradəmizdən kənarda tətbiq olunub. 80 faizə qədər informasiya kütləsi kompüterlərdən, 20 faizi televiziyalardan, yaxud digər mənbələrdən alınır. Kompüterdən niyə? Uşaqlara nə qədər qadağa eləsək də, istədiyimiz effekti ala bilməyəcəyik. Sadəcə, guya qarşımızda beyni təmiz, şəffaf bir uşaqmı görəcəyik? Olmur, müqəddəs yer boş qalmır, bunu bizdən əvvəl deyiblər, kəşf eləyiblər.

Axı, biz alternativ nəyi yaratmışıq ki, uşaqlar onu mənimsəsinlər. Bir dənə milli oyun, "iqra" dediyimiz nə isə yaratmamışıq ki, onlar onu oynasınlar. Hamımız "iqra"lara çox pis baxırıq, uşaqları ondan qorumaq istəyirik.

Amma "Minecraft" oyununu on milyonlarla insan izləyir, uşaqların beşindən beşi də onu əzbər bilir. Oyunun o qədər gözəl fəlsəfəsi var ki. Nəsə əkir, düzəldir, növbəti mərhələyə keçir, bir də qalib gəlir, növbəti xalları yığır. Uşaq beyninin məşqi üçün bundan gözəl oyun var? Bunu yaradıblar. Dünyanın "yumşaq güc" siyasəti ilə işğalının əsasını bununla qoyublar. Uşaqlarımızın beynində o obrazları yaradırlar. Bizim 5 uşaqdan beşi də "Selena"ya baxır. Nə qədər baxacaqlar? Axı, biz "Selena"ya alternativ yaratmışıq ki, ona baxsınlar? İndi bayaq dediyimiz o nağıllar əsasında düşünün ki, balaca cizgi filmləri çəkiblər. Nə verəcək o, uşaqlara? Ona görə biz düşünməliyik, uşaqları burada sadalanan yad informasiyadan, təhlükəli informasiyadan, vampir informasiyalarından, qəddarlıq informasiyalarından qorumağın ən yaxşı yolu onların alternativini verməkdir. Özümüz onları yaratmasaq, uşaqlar mütləq kənara qaçıb onları tapacaqlar. Qadağalar effekt vermir.

Mən yaxşı xatırlayıram, Üsəma bin Ladenin məhv edilməsindən sonra onun bütün gündəliklərini Amerikanın kəşfiyyat orqanları dərc eləmişdilər. Mən orada nəyə diqqət kəsildim? Bunun vaxtının mühüm bir hissəsi bizim hamımıza adi görünən, oyuncaq kimi baxdığımız "iqra"lara gedibdir. O "iqra"lara ki, onların hamısında sanki Amerika qarşısında hədəf qoyulub, bilirsiniz, o "iqra"ları da yaradanlar keçən dəfə dediyim indi informasiya aləmində nömrə 1-ə keçən YouTube-da kifayət qədər fəaldırlar. Hamı "YouTuber" olub, artıq özü rejissor kimi film, kino çəkə bilir. Bu "YouTuber"likdən Üsəma bin Ladenin mənəvi-psixoloji portretini yaratmalı olsaq, daha çox bu yönümlü filmlərə üstünlük verilər. Ona görə, biz istəyiriksə ki, qarşımızda milli uşaqlar görək, bizim ədəbi əsərləri-

mizi anlasınlar, onu çox qısametrajlı, – dövlət də bu sahəyə investisiya qoyub, – yaratsınlar. Amma biz səmimi danışsaq, həmkarımızdan 10 adamdan 9-u xəbərləri və dövlətin rəsmi siyasəti ilə bağlı göstərilənləri çıxmaq şərti ilə teleekranın digər proqramlarına baxmırlar. Niyə? Çünki hamımız çanaq antennalarla yad ideologiyanın içərisində bağlanmış oluruq. Ona görə ki, o ekran, internet resursları bizim mənəvi tələbatımızı ödəmir. O uşaqlar yaradıcı uşaqlardır, axtarışdadırlar, istəyirlər, nələrsə tapsınlar. Ona görə də mən bu qanun layihəsinə səs verəcəyəm. Amma düşünürəm ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi var, onlar bu siyasəti həyata keçirmək üçün xüsusi proqramlar hazırlaya bilərlər.

**Sədrlik edən.** Bahar Muradova.

**B.Muradova.** Təşəkkür edirəm, cənab Sədr! Məlumat üçün demək istəyirəm ki, bizim komitə də bu qanunu müzakirə edib. Burada səslənən fikirlər, bəlkə də onlardan daha geniş spektrdə olan fikirlər komitə iclaslarında vurğulanıb və əsaslı olaraq hər kəs narahatlığını ifadə edib ki, uşaqlarımızı zərərli informasiyadan qorumaq üçün milli mexanizmlər də daxil olmaqla universal mexanizmlərdən istifadə etmək lazımdır. Əlbəttə, burada bir sıra məsələlər səsləndi, mən, xüsusilə dini xurafat anlayışı ilə bağlı, müstəqil ekspert şurasının yaradılması, uşaqların informasiya təhlükəsizliyi konsepsiyasının hazırlanması məsələlərini vurğulamaq istəyirəm. Bunlar kifayət qədər maraqlı təkliflərdir. Yəqin ki, xüsusi komitə və elə biz də onlara yardımçı komitə olaraq bu məsələlərin üzərində işləyə bilərik.

Bir məsələ ilə də bağlı mən mövqeyimi bildirmək istəyirəm. Nəzərdə saxlamaq lazımdır ki, bu sahədəki vəziyyət təkcə qəbul olunacaq qanunla tənzimlənməyəcək. Bi-

lirsiniz ki, "Kütləvi informasiya vasitələri haqqında", "Teleradio yayımı haqqında", "Telekommunikasiya haqqında" qanunlar da zərərli informasiyaların qarşısının alınması üçün müəyyən müddəaları təsbit edir. Xüsusilə "Uşaq hüquqları haqqında" Qanun bu məsələləri özündə ehtiva edir.

Bir fikrə də münasibət bildirmək istəyirəm. Dərsliklərdəki məsələlər, bizim nağıllarımız, bu nağıllardakı məfhumlar, onların təqdim olunma qaydası barədə. Əlbəttə ki, burada narahatlıq doğuran müəyyən məqamlar var. Amma məlumat üçün onu da demək istəyirəm ki, təhsil müəssisələrində, dərsliklərdə uşaqların zərərli informasiyalardan qorunması məsələləri də "Təhsil haqqında" Qanunla tənzimlənir. Biz elə etməliyik ki, hər bir qanunun nəzərdə tutduğu, əhatə etdiyi sahə həmin qanunla tənzimlənsin. Bundan kənarda qalan, onun gücü çatmayan məqamlar isə, əlbəttə ki, bu qanunda öz əksini tapmalıdır. Mən tərəfdarıyam ki, biz özümüzün nağıllarımızı, sənət əsərlərimizi məhz bu qanunun tələblərinə uyğunlaşdırmalı, bəlkə də onun məzmununa zamana, dövrə görə müəyyən diqqət yetirməliyik. Amma sizi əmin edirəm ki, biz onları tam dəyişə bilməyəcəyik. Bu hədəfi də qarşımıza qoya bilmərik. Çünki min illərdir ki, bu nağıllar, dastanlar əsrlərin yaddaşından, insanların düşüncəsindən süzülərək gəlir. Hər dövr də ona öz əlavələrini edir. Ancaq mən o fikirdən də uzağam ki, əgər biz öz oyunlarımızı yaratsaq, həmin nağıllarımızı cilalasaq, bizi qane etməyən məqamlardan təmizləsək, uşaqlarımız zərərli məhsullardan tam qorunacaqlar. Onlar yenə də bu zərərli məhsullara maraq göstərəcəklər. Yəni alternativ təkcə bu deyil ki, bizim uyğun məhsullarımız yoxdur. Ona görə də onlar bu cür zərərli oyunlara, yaxud

zərərli informasiyalara diqqət edirlər. İstənilən halda sosial şəbəkələr, virtual aləm bu məhsullarla doludur, günbəgün, getdikcə artır. Əlbəttə ki, biz onların qarşısını alan müəyyən filtrlərin qoyulması, maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, həqiqətən də, sosial şəbəkədən və müasir informasiya texnologiyalarından istifadənin zərər vurmaması üçün yeni metodlar işləməli və həyata keçirməliyik.

Ona görə hesab edirəm ki, burada bu qanunun ikinci oxunuşda qəbulu üçün vacib olan təkliflər verilməlidir. Çıxış edənlərə mən qulaq asıram, əksəriyyəti, sadəcə, birinci oxunuşun tələblərini, mövcud vəziyyəti təsvir etməklə, problemləri sadalamaqla fikirlərini bitmiş sayır. Bilirsiniz, bunları söyləmək asandır, amma qarşısını almaq üçün mexanizm düşünmək çətindir. Ona görə də hesab edirəm, hər kəs öz təcrübəsindən, biliyindən və qabiliyyətindən istifadə edərək müəyyən mexanizmlər də təklif etsə və ikinci oxunuşun tələblərinə uyğun təkliflər versə, qanun üzərində işləyən komitə və yardımçı olaraq biz də müəyyən nəticələrə gələ bilərik. Ona görə hesab edirəm ki, çıxış edən yoldaşlarımız bu məsələləri nəzərə alsalar, yaxşıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** 2 həmkarınız qalıb. Təkid edirsiniz çıxışlara? Sona xanım təkid etmir, Məlahət xanım, təkid etmirsən?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, onda münasibət bildirək. Üzr istəyirəm, burada maddə deyil, fəsildir. 5 fəsildir. 2 fəsli bir, 3 fəsli bir səsə qoyaq. Birinci iki fəsilə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul olundu.

3–5-ci fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İclasımız sona çatdı, sağ olun.